*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 19 sentyabr 2018-ci il | № 72 (2288) | Qiyməti 25 qəpik

# Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm parad keçirilib

## Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan paradda iştirak ediblər

*Sentyabrın 15-də Azərbaycan paytaxtının Azadlıq meydanında Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş parad keçirilib.*



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva paradda iştirak ediblər.

Həmin gün Azərbaycan Respublikasının paytaxtı Bakı öz tarixinin ən əlamətdar günlərindən birini yaşadı. Düz 100 il əvvəl - 1918-ci il sentyabrın 15-də Bakı tarixində ilk dəfə Azərbaycanın paytaxtı statusunu alaraq Qafqaz İslam Ordusu və Azərbaycan milli ordu birləşmələrinin zəfərini bayram edirdi. Həmin gün indi yenidən təkrarlanır. Qardaşlığın, sədaqətin rəmzinə çevrilən bu zəfər bayramı ümummilli liderimiz Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamının fəlsəfəsini yetərincə əks etdirir və Azərbaycan-Türkiyə birliyinin, qardaşlığının sarsılmaz, həm də əbədi olduğunu göstərir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan və Türkiyə prezidentlərinə raport verdi.

Dövlət başçıları əsgərləri salamladılar.

Hərbi orkestr Türkiyənin və Azərbaycanın dövlət himnlərini ifa etdi.

Sonra sözləri görkəmli Azərbaycan şairi Əhməd Cavada, musiqisi dahi bəstəkar Üzeyir Hacıbəyliyə məxsus "Çırpınırdın Qara dəniz" mahnısı səsləndirildi. Daha sonra ölməz sənətkar Müslüm Maqomayevin ifasında məşhur "Azərbaycan" mahnısının sədaları "Azadlıq" meydanına yayıldı.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev paradda çıxış etdi.

- Hörmətli Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan.

Hörmətli qonaqlar.

Əziz hərbçilər, xanımlar və cənablar.

İlk növbədə, mənim dəvətimi qəbul edib Azərbaycana gəlmiş əziz qardaşım Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana öz dərin təşəkkürümü bildirmək istəyirəm. Bu bayram günündə biz birlikdəyik. Yüz il bundan əvvəl biz bir yerdə idik, bu gün də biz bir yerdəyik. Yüz il bundan əvvəl Nuru paşanın komandanlığı altında yeni yaradılmış Azərbaycan Milli Ordusu könüllülərlə birlikdə Bakını işğalçılardan azad etdi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan və Türkiyə vətəndaşlarını ürəkdən təbrik etmək istəyirəm. Azərbaycanın rəmzlərindən biri olan Azadlıq meydanından bütün türk bacı-qardaşlarımıza səmimi salamlarımı, sevgimi, məhəbbətimi çatdırıram.

Biz bu ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd etdik. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. İlk dəfə olaraq, müsəlman aləmində demokratik respublika yaradılmışdı. Biz fəxr edirik ki, bu respublikanı yaradan Azərbaycan xalqı olmuşdur. Ancaq gənc müstəqil Azərbaycan böyük çətinliklərlə üzləşmişdi. Azərbaycan hökuməti öz ərazisinə tam nəzarət edə bilmirdi. Bakı şəhəri və bir neçə başqa şəhər işğal altında idi. Azərbaycan hökuməti Gəncə şəhərində yerləşmiş və orada fəaliyyət göstərmişdi. Qafqaz İslam Ordusunun Azərbaycana gəlməsi və Nuru paşanın rəhbərliyi altında Gəncədən Bakıya gəlməsi, bir neçə şəhərin azad edilməsi və sentyabrın 15-də şiddətli döyüşlər nəticəsində Bakının azad edilməsi tarixi hadisə idi. Qədirbilən Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq, şəhidlərin əziz xatirəsini daim öz qəlbində yaşadacaqdır.

Biz bu gün əziz qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla şəhidlərimizin məzarlarını ziyarət etdik. Onların məzarları yan-yanadır. Onlara Allahdan rəhmət dilədik, onların xatirəsi bizim qəlbimizdədir və onların göstərdikləri qəhrəmanlıq bu gün Türkiyə və Azərbaycan birliyini daha da möhkəmləndirir.

Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. Əfsuslar olsun ki, iki ildən sonra Cümhuriyyət süqut etdi, Azərbaycan öz dövlət müstəqilliyini itirdi. 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini bərpa etmişdir və bizi ilk tanıyan Türkiyə olmuşdur. Bu da bir qardaşlıq nümunəsi idi.

Bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir. Məncə, dünyada ikinci belə nümunə yoxdur ki, iki ölkə bir-birinə bu qədər yaxın olsun, bu qədər bir-birinə arxa-dayaq olsun. Bizim birliyimiz bütün sahələrdə özünü büruzə verir. Təkcə bu il Prezident Rəcəb Tayyib Ərdoğanla mənim altı görüşüm olmuşdur - ikisi Azərbaycanda, ikisi Türkiyədə, ikisi isə beynəlxalq tədbirlər çərçivəsində. Bizim görüşlərimiz müntəzəm olaraq keçirilir və hər görüşün böyük əhəmiyyəti var. Siyasi əlaqələr bu gün ən yüksək zirvədədir. Biz uğurlu iqtisadi əməkdaşlıq edirik. Ticarət dövriyyəsi artır. Azərbaycandan Türkiyəyə, Türkiyədən Azərbaycana milyardlarla dollar həcmində sərmayə qoyulur. Biz birgə enerji-nəqliyyat layihələrini uğurla icra edirik. O layihələr ki, Avrasiyanın enerji və nəqliyyat xəritəsini yaradır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri, TANAP layihəsinin bu il istifadəyə verilməsi tarixi layihələrdir. Birgə siyasi iradə ortaya qoyulmuşdur. Birgə maliyyə resursları təşkil edilmişdir və bu nəhəng transmilli layihələr uğurla icra edilmişdir. Biz Avrasiyanın nəqliyyat xəritəsini yenidən yaradırıq. Keçən ilin oktyabrında əziz qardaşımın iştirakı ilə Bakıda Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılışı mərasimi keçirilmişdir. Bu dəmir yolu yeni nəqliyyat damarıdır. Bu dəmir yolu ilə daşınan yüklərin həcmi getdikcə artır və artacaq. Bizim ölkələrimizin əhəmiyyəti, önəmi artır. Bütün bu böyük layihələri ancaq biz birlikdə edə bilərdik və etdik. Nəzərə alsaq ki, bu layihələr böyük maliyyə resursları, böyük siyasi iradə tələb edir, ancaq birgə səylərimizlə biz buna nail ola bilmişik. Bu gün Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi bu layihələrin bəhrəsini görür. Bizim birliyimiz hər bir sahədə özünü göstərir, o cümlədən hərbi sahədə bizim iş birliyimiz, əməkdaşlığımız dərinləşir. İl ərzində bir neçə dəfə müştərək hərbi təlimlər keçirilir. Bu gün Türkiyə və Azərbaycan ordularının əsgərləri Azadlıq meydanında yan-yana dayanıblar və onlar bizim önümüzdən qardaş kimi keçəcəklər.

(Ardı 2-ci səhifədə)

AZƏRBAYCAN ORDUSU

# Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm parad keçirilib

(Əvvəli 1-ci səhifədə)




Türkiyə son illər ərzində çox böyük və şərəfli yol keçmişdir. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə dünya miqyasında böyük gücə çevrilibdir. Türkiyənin iştirakı olmadan dünyada heç bir məsələ həll oluna bilməz. Yaşadığımız bölgənin tarixi və bu günü bunu əyani şəkildə göstərir. Türkiyənin siyasi imkanları genişlənir, dünyadakı oynadığı rol artır və bu, bizi çox sevindirir. Türkiyə nə qədər güclü olarsa, Azərbaycan da bir o qədər güclü olacaqdır. Türkiyə böyük iqtisadi gücə sahib bir ölkədir. Təsadüfi deyil ki, Türkiyə iqtisadiyyatına milyardlarla dollar xarici sərmayə qoyulur. Təkcə Azərbaycanın Türkiyəyə qoyduğu və qoyacağı sərmayə 20 milyard dollara bərabərdir. Türkiyənin dünya miqyasında çox güclü ordusu var. O dünya miqyasında ən güclü ordulardan biridir və həm Türkiyə, həm də bizim üçün bu, qürur mənbəyidir. Bütün bu uğurlar yalnız güclü liderin yorulmaz fəaliyyəti və xalqın Rəcəb Tayyib Ərdoğana olan dəstəyi nəticəsində mümkün olmuşdur. Bu gün mən Azadlıq meydanından bütün bu uğurlar münasibətilə Türkiyə Cümhuriyyətinin Prezidentini və bütün türk xalqını ürəkdən təbrik etmək istərdim.

Gələn ay Azərbaycan dövlət müstəqilliyinin bərpasının 27-ci ildönümünü qeyd edəcək. Tarix üçün bu, çox qısa bir vaxtdır. Müstəqilliyimizin ilk iki ili çox ağır, faciəvi keçmişdir, torpaqlarımız işğal altına düşmüşdür, Azərbaycan böyük iqtisadi çətinliklərlə, iqtisadi-siyasi böhranla üzləşmişdir. Azərbaycanda vətəndaş müharibəsi gedirdi. Nəzərə alsaq ki, birinci iki ilimiz çox ağır keçmişdir, sonrakı dövrdə Azərbaycan böyük uğurlara imza atdı. Bu gün Azərbaycan bölgədə önəmli ölkəyə çevrilib, dünyadakı rolumuz artır, bizim beynəlxalq mövqelərimiz möhkəmlənir, dünya ictimaiyyəti bizim siyasətimizi dəstəkləyir. Bunun ən bariz




nümunəsi odur ki, bir neçə il bundan əvvəl dünyanın 155 ölkəsi Azərbaycanı BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçmişdir. Bu, dünyanın Azərbaycana olan dəstəyinin təzahürüdür. İqtisadi sahədə aparılan islahatlar Azərbaycana böyük imkanlar gətirdi, biz böyük nailiyyətlərə çata bildik. Təkcə onu demək kifayətdir ki, son 15 il ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artmışdır. Ölkə iqtisadiyyatına 250 milyard dollar sərmayə qoyulmuşdur. Sosial məsələlərin həlli işində böyük uğurlar əldə edilmişdir. Bu gün Azərbaycanda işsizlik 5 faiz səviyyəsindədir. Azərbaycan dost ölkələrlə, ilk növbədə, Türkiyə ilə birlikdə böyük layihələr icra etdi. Yəni, bütün bunlar tam əminliklə deməyə əsas verir ki, Azərbaycanın gələcəyi də parlaq olacaq.

Ölkəmiz ordu quruculuğu sahəsində də böyük uğurlar əldə edib. Bu gün Azərbaycan Ordusu beynəlxalq reytinqlərə görə dünya miqyasında 50 ən güclü ordu sırasındadır. Bizim hərbi potensialımız artır. Bizim güclü ordumuza böyük ehtiyacımız var. Çünki torpaqlarımız işğal altındadır.

Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb. Mənfur qonşular 1990-cı illərin əvvəllərində Azərbaycandakı qeyri-sabit vəziyyətdən istifadə edərək torpaqlarımızın bir hissəsini işğal edib. İşğal edilmiş torpaqlarda bütün tarixi, dini abidələrimiz ermənilər tərəfindən vəhşicəsinə məhv edilib. Xalqımıza qarşı soyqırımı törədilib və bu işğal bu gün də davam edir. Ona görə güclü ordu Azərbaycanın gələcəkdə müstəqil ölkə kimi yaşaması, ərazi bütövlüyünün bərpası üçün əsas şərtdir. Azərbaycan Ordusu döyüş meydanında öz gücünü, məharətini göstərmişdir. Bu gün Azadlıq meydanına döyüşlərdə olmuş Azərbaycan bayraqları gətiriləcək. O bayraqlar ki, 2016-cı ildə Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında Azərbaycan əsgəri tərəfindən qaldırılmışdır. O bayraqlar ki, bu ilin may ayında Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan hissəsində uğurlu əməliyyat nəticəsində işğaldan azad edilmiş torpaqlarda qaldırılmışdır. Gün gələcək Azərbaycanın dövlət bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır.

Əziz dostlar, bu gün, sözün əsl mənasında, tarixi bir gündür, Türkiyə-Azərbaycan birliyi, Türkiyə-Azərbaycan qardaşlığı günüdür. Biz bu nəslin nümayəndələri bu günü yaşadırıq, yaşadacağıq. Bu gün bütün dünya görür ki, Türkiyə və Azərbaycan bir yerdədir, bütün dünya görür ki, bizim sarsılmaz dostluğumuz, qardaşlığımız əbədidir.

Yüz il bundan əvvəl Nuru paşanın Qafqaz İslam Ordusunun və Azərbaycan Milli Ordusunun birgə əməliyyatı nəticəsində Bakı işğalçılardan azad edildi. Bir gündən çox davam edən şiddətli döyüşlərdə bizim əcdadlarımız əsl qəhrəmanlıq, şücaət göstərmişlər. Onu da qeyd etməliyəm ki, bu tarixi zəfərdən iki gün sonra Azərbaycan hökuməti Gəncədən Bakıya gəlmiş və Bakı Azərbaycan dövlətinin paytaxtı elan edilmişdir. Bizim qədim şəhərimiz, Azərbaycan xalqının qədim şəhəri Bakı öz əsl sahibinə qayıtmışdır. Nuru paşanın, Qafqaz İslam Ordusunun, bütün qardaşlarımızın qəhrəmanlığı, dostluğu, qardaşlığı unudulmazdır, əbədidir, bizim qəlbimizdə daim yaşayacaqdır.

Tarixi zəfərdən sonra qəhrəman əsgərlərimiz Bakı küçələrinə zəfər yürüşünə çıxmışlar. Minlərlə Bakı sakini onları alqışlayırdı, onları öpürdü, qucaqlayırdı, bağrına basırdı. Bu, bir birlik bayramı idi.

Bu gün minlərlə Bakı sakini şəhərin küçələrində bu paradı, türk və Azərbaycan əsgərlərinin möhtəşəm yürüşünü gözləyir. Bu gün Bakı şəhəri Türkiyə və Azərbaycan bayraqları ilə bəzədilib. Küçələrdə, binalarda, hərbi gəmilərdə, səmada Türkiyə və Azərbaycan bayraqları dalğalanır. Bu gün bu möhtəşəm mərasimi təkcə Bakı şəhərinin sakinləri yox, bütün dünya görür. Milyonlarla insan Türkiyə və Azərbaycanda, milyonlarla soydaşımız xaricdə bunu görür və haqlı olaraq qürur hissi keçirir.

Əziz dostlar, bacılar və qardaşlar, mən bir daha sizin hamınızı tarixi gün münasibətilə - Bakının işğaldan azad edilməsinin 100 illiyi münasibətilə təbrik etmək istəyirəm. Türkiyə və Azərbaycan xalqlarına daim inkişaf, tərəqqi arzulamaq istəyirəm. Bildirmək istəyirəm ki, Türkiyə-Azərbaycan dostluğu sarsılmazdır, əbədidir.

* * *

Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi.

- Əziz qardaşım Prezident İlham Əliyev.

Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin qəhrəman nümayəndələri.

Dəyərli qonaqlar.

Xanımlar və cənablar.

Çox dəyərli bakılı qardaşlarım.

Sizləri ən səmimi hisslərimlə, məhəbbətlə, hörmətlə salamlayıram.

Bu səmimi dəvətinə və qonaqpərvərliyinə görə Prezident İlham Əliyevə təşəkkür edirəm. Xanımına şəxsən öz adımdan və xanımım adından ürəkdən salam və ehtiramımı bildirirəm.

Əvvəla, Azərbaycanın müstəqilliyi üçün canlarını fəda edən bütün şəhidlərimizi ehtiramla anırıq, onlara Allahdan rəhmət və ruhlarının şad olmasını diləyirəm. Onlar fədakarlıqları və cəsarətləri ilə özlərindən sonra nəsildən-nəslə qürurla xatırlanacaq şanlı bir dastan yazaraq, Türkiyə və Azərbaycanın əbədi qardaşlığının da rəmzi oldular. Biz dünyanın 34 ölkəsində 78 şəhid məzarlığı olan bir ölkəyik. Türkiyə Azərbaycan uğrunda 1132 şəhid verib. Azərbaycan Türkiyədən sonra ən çox şəhidimizin olduğu ölkədir. Buradakı məzarlarda yanaşı uyuyan şəhidlərimiz, eyni zamanda, ölkələrimiz arasındakı birgə taleyin təmsilçiləridir. Türkiyə və Azərbaycan tarixi bir, mədəniyyəti bir, dili bir, dini bir iki qardaş ölkədir.



Böyük şair, mərhum Bəxtiyar Vahabzadə bu birliyimizi belə gözəl ifadə edib:

Bir ananın iki oğlu,
Bir amalın iki qolu.
O da ulu, bu da ulu,
Azərbaycan-Türkiyə.

Dinimiz bir, dilimiz bir,
Ayımız bir, ilimiz bir,
Eşqimiz bir, yolumuz bir,
Azərbaycan-Türkiyə.

Birdir bizim hər halımız,
Sevincimiz-məlalımız.
Bayraqlarda hilalımız,
Azərbaycan-Türkiyə.

Ana yurdda yuva qurdum,
Ata yurda könül verdim.
Ana yurdum, ata yurdum,
Azərbaycan-Türkiyə.

Bəli, Türkiyə və Azərbaycanın birliyi bu misralarda təcəssüm edən qardaşlığın ən gözəl nümunəsidir.

Biz bu gün burada yalnız Qafqaz İslam Ordusunun və azərbaycanlı qardaşlarımızın dillərdə dastan olan mübarizəsi ilə Bakının işğaldan azad olunmasının 100-cü ildönümünü qeyd etmirik, eyni zamanda, əziz şəhidlərimizin bizə əmanəti olan "Bir millət, iki dövlət" deyə rəmzləşdirdiyimiz qan qardaşlığımızı da dərk edirik.

Dəyərli qardaşlarım, burada bir həqiqəti dərhal vurğulamaq istəyirəm. 1918-ci il sentyabrın 15-də hazırda yaşadığımız ərazilərdə baş verən müharibə, əslə, adi bir hadisə deyil. Bir əsr əvvəl burada aparılan mübarizə bizim qardaşlığımızın, dostluğumuzun, birlik və bərabərliyimizin də rəmzidir. Tarixi bilmədən, bir əsr əvvəl Nuru paşanın və əsgərlərinin minlərlə kilometr uzaqdan Bakıya və Gəncəyə gəlmələrinin səbəblərini dərk etmədən Azadlıq meydanındakı bu həmrəylik mənzərəsinin mənasını anlaya bilmərik. Bundan bir əsr əvvəl qardaşlarımızın işğal altında çəkdiyi zülm elə bir həddə çatmışdı ki, Nuru paşa Gəncəyə gələndə azərbaycanlı uşaqlar hamısı bir ağızdan məmnunluqlarını belə ifadə etmişdilər:

Qatar gəlib yan verir,
Gəncəliyə şan verir.
Gəncənin cavanları,
"Bakı!" deyə can verir.

Azərbaycanın məşhur "Lalələr" mahnısının kədərli hekayəsi də eyni şəkildə çəkilən əzabların və Qafqaz İslam Ordusunun qəlblərdə yaratdığı sevinc hissinin ifadəsidir.

Gəncə bölgəsinə hərəkət edən minlərlə əsgər başlarındakı qırmızı fəslər və qotazları ilə uzaqdan gəlincik çəmənzarına bənzər bir mənzərə yaradırdılar. Gəlincik Azərbaycan dilində lalə deməkdir. Bəstəkar Telman Hacıyevin lalə ilə bağlı mahnısında şair hisslərini bu cür ifadə edib:

Yazın əvvəlində Gəncə çölündə,
Çıxıblar yenə də dizə lalələr.
Yağışdan islanan yarpaqlarını,
Səriblər dərəyə, düzə lalələr.

Meylim üzündəki qara xaldadır,
Hicranın əlacı ilk vüsaldadır.
Nə vaxtdır aşiqin gözü yoldadır,
Bir qonaq gələsiz bizə lalələr.

Nuru paşanın və Qafqaz İslam Ordusunun Bakıya və Gəncəyə gəlişi azərbaycanlı qardaşlarımız arasında belə böyük həyəcana, belə böyük bir ümidə səbəb olub.

(Ardı 3-cü səhifədə)

# Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş möhtəşəm parad keçirilib



(Əvvəli 2-ci səhifədə)

Dəyərli qardaşlarım, bu gün 1918-ci il sentyabrın 15-də qazanılmış böyük qələbəni kiçik, əhəmiyyətsiz göstərməyə çalışan bəzi qüvvələrin olduğunu bilirik. Buna təşəbbüs göstərənlər o dövrdə aldıqları ağır məğlubiyyətin rüsvayçılığını hələ də unuda bilməyənlərdir.

Osmanlı dövlətinin imzaladığı Mudros atəşkəs müqaviləsi təəssüf ki, bu dairələrə fürsət verib və Qafqaz İslam Ordusunun bu torpaqlardan çəkilməsinə yol açıb. Bundan daha da ağrılısı odur ki, həmin dövrdə eyni dairələr Azərbaycan Xalq Cümhuriyyətinin varlığına son qoymaq üçün böyük səy göstəriblər. Təəssüf ki, müstəqilliyinin bərpasından 22 ay sonra bu məsələdə uğur qazanıblar.

Qafqaz İslam Ordusunun və Azərbaycan Ordusunun 1918-ci ildə burada həyata keçirdikləri əməliyyatlar o dövrdə Azərbaycanın ərazi bütövlüyünü təmin edərək bugünkü müstəqilliyinin təməlini qoyub.

Azərbaycanın 1991-ci ildə müstəqilliyini yenidən bərpa etməsindən sonra onu ilk tanıyan ölkənin Türkiyə Respublikası olması heç də təsadüfi deyil. Bu, qan qardaşlığımızın təbii nəticəsidir. Türkiyə olaraq müstəqilliyinin ilk dövrlərindən başlayaraq Azərbaycana əlimizdən gələn hər cür dəstəyi göstərdik və göstərməyə davam edəcəyik.

Bu gün Türkiyə Azərbaycanın sadəcə siyasi və hərbi deyil, eyni zamanda, ticarət, iqtisadiyyat, mədəniyyət və digər bütün sahələrdə ən mühüm tərəfdaşıdır. Müstəqilliyini bərpa etdikdən bəri Türkiyədə təhsil almış azərbaycanlıların sayı 125 mindən çoxdur. Hazırda 15 mindən çox azərbaycanlı tələbə Türkiyə universitetlərində təhsil alır. Əsgərlərimiz birgə təlimlər keçir, Əfqanıstan kimi dünyanın müxtəlif bölgələrində birlikdə fəaliyyət göstərirlər. Şübhəsiz ki, bu uğurlarda ümummilli lider Heydər Əliyevin nümayiş etdirdiyi dəyanətli liderliklə yanaşı, əziz qardaşım İlham Əliyevin səylərinin çox böyük bir payı vardır.

Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu, TANAP kimi birgə həyata keçirdiyimiz layihələr bütün regiona töhfəsini verir. Türkiyə Azərbaycanda ən böyük sərmayədarlardan biridir. İnşallah, Azərbaycan da çox yaxın zamanlarda Türkiyədə eyni mövqeyə malik olacaq. Digər tərəfdən, bütün bu nailiyyətlərlə bərabər, gördüyümüz işlərlə heç vaxt kifayətlənməmişik və kifayətlənməyəcəyik. Gələcəkdə bizi daha böyük vəzifələr gözləyir. Biz aramızdakı əlaqələri daha da sağlamlaşdıraraq, gələcək nəsillərə güclü bir miras qoymalıyıq. Biz minlərlə şəhidimizin qanı ilə yoğrulan bu dostluğu daimi edəcək layihələri həyata keçirərək "Bir millət, iki dövlət" şüarımıza uyğun şəkildə hər sahədə əməkdaşlığımızı dərinləşdirməliyik.

Hörmətli Prezident, dəyərli dostlarım, Azərbaycanın sevinci, bizim sevincimizdir, qüruru bizim qürurumuzdur, dərdi, ağrısı, problemi də bizim problemimizdir. Azərbaycan kədərlənərsə biz də kədərlənərik, Azərbaycan sevinərsə, biz də sevinərik. Azərbaycanın ən böyük problemi olan Dağlıq Qarabağ məsələsi bizim üçün də eyni dərəcədə ağrılı problemdir. Türkiyə olaraq problemin həlli üçün Azərbaycanın göstərdiyi səyləri sonadək dəstəkləməyə davam edəcəyik. İllərdir Vətən həsrəti ilə ömür sürən bir milyondan çox qardaşımızın intizarına artıq son qoymaq vaxtıdır. Qardaş Azərbaycanın ərazilərinin 20 faizini işğal altında saxlayanların, bir milyondan çox qardaşımızın öz Vətəninə qayıtmasına mane olanların bizdən sərhədlərimizi açmağımızı gözləmələri əbəsdir. Türkiyənin bu məsələdə mövqeyi məlumdur, aydındır, dəqiqdir. Əvvəla, bu məsələdə addım atmalı olan tərəf işğalçılardır, bir milyon qardaşımızın qəlbini doğma Vətən həsrəti ilə yandıranlardır. Əlbəttə, biz bütün qonşularımızla yaxşı əlaqələr qurmağı və davam etdirməyi arzu edirik. Amma Dağlıq Qarabağ probleminin həlli Ermənistanla əlaqələrimizin bərpasının ən vacib şərtidir. Bunu hamı bilməlidir. Bundan 26 il əvvəl Xocalıda, Dağlıq Qarabağda törədilmiş qətliamlara görə məsuliyyət daşıyanların, qatilləri qəhrəman elan edənlərin bizə verə biləcəyi heç bir tarixi dərs yoxdur. Türkiyə əsgərləri bu gün burada Azərbaycan əsgərləri ilə çiyin-çiyinə bundan 100 il əvvəl birlikdə qazanılan böyük qələbənin ildönümünü qeyd edirlər. Bu bayram gələcək nəsillərə ötürəcəyimiz ən böyük ərməğandır. Bir əsr əvvəl bu torpaqlarda minlərlə şəhidimizin qanı ilə yazılan dastanın unudulmasına və unutdurulmasına qətiyyən imkan verməyəcəyik.

Hər iki ölkənin gənclərinin birgə tariximizdən və bugünkü bayram tədbirindən nəticə çıxaracağına inanıram. Bu fikirlərlə çıxışıma yekun vuraraq, bu böyük qələbəni bizlərə ərməğan edən Azərbaycan Xalq Cümhuriyyətinin və müstəqil Azərbaycan Ordusunun bütün qurucularını, Qafqaz İslam Ordusunun Azərbaycana göndərilməsini təmin edən Ənvər paşanı, bu qalib ordunun komandanı Nuru paşanı rəhmətlə yad edirik.

Qafqaz İslam Ordusunun bütün komandanlarına, hər bir əsgərinə və xüsusilə, bu torpaqlar uğrunda canından keçmiş əziz şəhidlərimizə Allahdan rəhmət diləyirəm.

Bu möhtəşəm tədbiri həyata keçirən qardaşım İlham Əliyevə və komandasına şəxsən öz adımdan və xalqım adından bir daha minnətdarlığımı bildirirəm.

Rəbbim bizi şəhidlərimizin yolundan ayırmasın. Sizlərə də ehtiramımı bildirirəm. Bu böyük ildönümü münasibətilə həm Azərbaycan Respublikasının, həm Türkiyə Respublikasının, həm də türk millətinin hər bir fərdinin bayramını təbrik edirəm. Allah sizi qorusun.

* * *

Dövlət başçılarının çıxışlarından sonra Bakı Qarnizonunun şəxsi heyətinin təntənəli keçidi başlandı. Qarnizonun birlik, birləşmə, hərbi hissə, dövlət xidmətləri və xüsusi təyinatlı təhsil müəssisələrini təmsil edən parad heyətləri tribunaya doğru irəlilədi. Qarşıda Azərbaycan Respublikasının Dövlət bayrağı, onun ardınca isə Azərbaycan Ordusunun qoşun növlərinin bayraqları gətirildi.




2016-cı ilin aprelində Füzuli, Cəbrayıl, Ağdərə, Tərtər rayonlarında və bu yaxınlarda Naxçıvan Muxtar Respublikasında bir çox strateji yüksəkliklərin azad edərək min hektarlarla ərazinin nəzarətə götürülməsində xüsusilə fərqlənən hərbi hissələrin döyüş bayraqları da bugünkü paradda gətirilib.

Ulu öndər Heydər Əliyevin 1971-ci ildə yaratdığı Cəmşid Naxçıvanski adına Hərbi Liseyin, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantlarından, Bakı Qarnizonu zabitlərindən ibarət parad heyəti tribunanın önündən keçdilər.

Meydana Türkiyə Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları, Əməliyyat İmkanları Konsepsiyası və Əməliyyat Ehtiyatları taborlarını təmsil edən parad heyəti, Xüsusi Təyinatlı Qüvvələrin və Dəniz Piyadaları bölmələrinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Dövlət Sərhəd Xidmətinin, Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçuları daxil oldular.



Daha sonra Bakı Qarnizonunun birlik, birləşmə və hərbi hissələrinin xüsusi texnikaları və silah sistemlərinin keçidi oldu.

Paradı xüsusi təyinatlı avtomobil texnikaları, zirehli-tank texnikası, Hava Hücumundan Müdafiə silahları sistemlərinin, artilleriya silahları və əməliyyat taktiki raket sistemlərinin kolonları davam etdirdi.

Türkiyə Silahlı Qüvvələrinin məşhur "Mehtəran" birliyi "Mehtər marşı"nın sədaları altında Azadlıq meydanına daxil oldu. "Mehtəran" birliyi tribuna ilə üz-üzə dayanaraq "Əsgər marşı"nı ifa etdi.

Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçuları Osmanlı Türkiyəsi və Azərbaycanın milli hərbi qüvvələri əsasında təşkil edilmiş Qafqaz İslam Ordusunun süvari və piyadalarının qiyafəsində, hər iki ölkənin dövlət bayraqları altında tribuna önündən keçdilər.

Azadlıq meydanı üzərindən Azərbaycan Respublikası Hərbi Hava Qüvvələrinin döyüş helikopterləri və təyyarələrinin uçuşu oldu.

Hərbi Hava Qüvvələrinin uçuş nümayişini "Mi-17" tipli iki helikopter açdı. Birinci helikopter Azərbaycan Respublikasının Dövlət bayrağını, ikinci helikopter isə Türkiyə Respublikasının Dövlət bayrağını apardı.

"Su-25" hücum təyyarələri Bakı səmasında Azərbaycan Respublikasının Dövlət bayrağının təsvirini yaratdılar.

"MiQ-29" təyyarəsi yüksək pilotaj fiqurları nümayiş etdirdi.

Sonra Türkiyə Silahlı Qüvvələrinin "Türk Ulduzları"nın uçuşları başladı.

Türkiyəli şahinlər Azadlıq meydanı üzərində yüksək məharətlərini nümayiş etdirdilər, Azərbaycanın və Türkiyənin dostluğunun, qardaşlığının və qəlb birliyinin rəmzi olan ürək şəkli çəkdilər.

Bununla da Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş parad başa çatdı.

Parad başa çatdıqdan sonra dövlət başçıları Qafqaz İslam Ordusunun Bakını azad etməsinin 100 illiyi münasibətilə Türkiyədə hazırlanan xatirə markasını və ilk zərfi imzaladılar.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini general-leytenant Ayaz Həsənovun komandanlıq etdiyi, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbaninin aparıcısı olduğu paradı Xalq artisti, professor, general-mayor Yusif Axundzadənin rəhbərliyi ilə birləşmiş hərbi orkestr müşayiət edirdi.

Yüzlərlə hərbi texnikanın, uçuş vasitələrinin, zirehli texnikaların, raket və artilleriya silahlarının, hava hücumundan müdafiə sistemlərinin, helikopterlərin, pilotsuz uçuş aparatlarının, digər silah və texnikanın nümayiş olunduğu bu parad bir daha göstərdi ki, son illərdə ordumuz əhəmiyyətli dərəcədə güclənib. Güclü iqtisadiyyata söykənən güclü ordu formulu Prezident İlham Əliyevin fəaliyyətinin əsas qayələrindən birinə çevrilib. Ölkəmizin iqtisadi inkişaf tempi Silahlı Qüvvələrin müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində mühüm rol oynayıb. Sabitlik, dinamik iqtisadi inkişafla yanaşı, güclü ordu quruculuğu müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən biri olub.

# Azərbaycan və Türkiyə prezidentləri parad iştirakçıları ilə xatirə şəkilləri çəkdiriblər

*Sentyabrın 15-də Bakının azad olunmasının 100 illiyi ilə bağlı keçirilən təntənəli paraddan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Qız qalasının qarşısına gəldilər.*



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Qız qalasının qarşısında paradda iştirak edən əsgərlərlə görüşdülər, onlarla xatirə şəkilləri çəkdirdilər.

Burada əllərində Azərbaycanın və Türkiyənin dövlət bayraqlarını tutmuş Bakı sakinləri və şəhərimizin qonaqları Prezident İlham Əliyevi və Prezident Rəcəb Tayyib Ərdoğanı böyük coşqu ilə qarşıladılar. Onlar Azərbaycan-Türkiyə qardaşlığı ilə bağlı şüarlar səsləndirdilər.

Dövlət başçıları paytaxt sakinləri ilə xatirə şəkilləri çəkdirdilər.

Daha sonra Azərbaycan və Türkiyə prezidentləri Bakı bulvarını gəzdilər.

# Azərbaycan Ordusu genişmiqyaslı təlimlərə başlayıb



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə sentyabrın 17-dən Azərbaycan Ordusunun müxtəlif qoşun növləri, qismləri, birlik və birləşmələrinin iştirakı ilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri başlayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, sentyabrın 22-dək davam edəcək təlimlərə 20 mindən artıq şəxsi heyət, 200-dən çox tank və digər zirehli texnika, 120-dən çox müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 10-dək qırıcı və bombardmançı, 20-dək müxtəlif təyinatlı ordu aviasiyası cəlb edilib.

* * *

Genişmiqyaslı təlimlərin keçirilməsi planına uyğun həyəcan siqnalı ilə qaldırılan qoşunların hərəkəti, idarə edilməsi tələblərə uyğun olaraq, gizli və operativ şəkildə həyata keçirilir.

Keçirilən təlimlərdə qoşunlar cəmləşmə rayonlarını tutur və qruplaşmalar yaradılır. Qoşunların komanda idarəetmə məntəqələrində döyüş fəaliyyəti təşkil olunub.

* * *

Genişmiqyaslı təlimlərin planına əsasən qoşunlar, hərbi texnika, döyüş və ehtiyat hərbi hissələri əməliyyat təyinatı rayonlarına çıxarılır.

Təlimin hazırkı mərhələsinin şərtlərinə uyğun olaraq, qoşunlar nəzərdə tutulan digər fəaliyyətləri də icra edir.

# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin bəyanatı

Ermənistan cəbhə xəttində mülki əhaliyə qarşı təxribat törədib.

Sentyabrın 14-də axşam saatlarından başlayaraq sentyabrın 15-i səhərədək Ermənistan silahlı qüvvələrinin bölmələri müxtəlif çaplı silahlardan, o cümlədən artilleriya qurğusundan istifadə etməklə Tovuz, Tərtər və Ağdam rayonları istiqamətində təxribat törədib.

Düşmən tərəfi xüsusilə Tovuz rayonunun Muncuqlu, Koxanəbi, Əsrik Cırdaxan və Qaralar kəndləri istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini və dinc sakinləri atəşə tutub.

Hərbi qulluqçular və əhali arasında xəsarət alan olmayıb. Bəzi evlərə, sakinlərin əmlakına və mülki infrastruktura ziyan dəyib.

Ermənistan tərəfinin bu cür təxribat əməlləri həmişə olduğu kimi Azərbaycanda əlamətdar hadisələr, bayram günləri ərəfəsində törətməsi məqsədyönlü xarakter daşıyır.

Müdafiə Nazirliyi bildirir ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən təcili cavab tədbirləri nəticəsində düşmənin aktivliyinin qarşısı alınıb, düşmən tərəfində baş verən itkilər və dağıntıya görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

# Əlahiddə Ümumqoşun Orduda təlim keçirilir

Azərbaycan Respublikası Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, sentyabrın 18-dən 21-dək Naxçıvan Qarnizonunda yerləşən bütün birləşmə və hissələrin iştirakı ilə təlimə start verilib.



Əlahiddə Ümumqoşun Ordunun Mətbuat Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, keçiriləcək komanda-qərargah təlimi Əlahiddə Ümumqoşun Ordunun "Tam müdafiə" döyüşə hazırolma dərəcəsinə gətirilməsi, birinci eşalon birləşmələri tərəfindən düşmənin qəfil hücumlarının və diversiya-kəşfiyyat fəaliyyətlərinin qarşısının alınması, ehtiyat birləşmə və hissələrin "Həyəcan" siqnalı ilə döyüş təyinatlı rayonlara çıxarılması, müdafiə əməliyyatına hazırlıq və müdafiənin aparılması mövzularını əhatə edir.

Təlim senarisinə uyğun olaraq, praktiki fəaliyyətə cəlb olunan birləşmə və hissələri təlim ərazisinə çıxarılıb.

# "Azərbaycan Ordusunun bölmələri heç bir itki verməyib və cəbhə xətti boyu əməliyyat şəraitinə tam nəzarət edir"

"Mənim addımım" blokunun sentyabrın 16-da Yerevanda keçirilən seçkiqabağı təbliğatı zamanı çıxış edən Ermənistanın baş naziri Nikol Paşinyanın guya son üç gün ərzində Ermənistan silahlı qüvvələri tərəfindən 3 Azərbaycan əsgərinin öldürülməsi barədə dediklərinə cavab olaraq Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, xaosun hökm sürdüyü Ermənistanda həmişə olduğu kimi, bu dəfə də ölkənin hərbi rəhbərliyi baş naziri aldadaraq ona yalan məlumat verib.

Ermənistanın baş naziri isə yalan məlumatlardan belə yararlanaraq onları böyük həvəslə öz xalqına çatdırmaqla ictimaiyyətin diqqətini apardığı uğursuz siyasətindən yayındırmağa çalışır.

Müdafiə Nazirliyi bildirir ki, Azərbaycan Ordusunun bölmələri heç bir döyüş itkisi verməyib və cəbhə xətti boyu əməliyyat şəraitinə tam nəzarət edir.



# Müdafiə naziri təlimlər keçirilən bölgəyə gəlib

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, keçirilən təlimlərə rəhbərlik etmək üçün Müdafiə naziri general-polkovnik Zakir Həsənov təlimlər keçirilən bölgəyə gəlib.*

Müdafiə naziri və nazirliyin digər rəhbər heyəti hərbi hissənin ərazisində ucaldılan ümummilli lider Heydər Əliyevin büstünü ziyarət edib, qarşısına gül dəstələri qoyaraq hörmət və ehtiramlarını ifadə ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, general-polkovnik Zakir Həsənov müxtəlif poliqonlar və təlim sahələrində keçirilən təlimin senarisinə uyğun olaraq qarşıya qoyulan məqsəd və vəzifələr barədə məruzələri dinləyib.

Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu müvafiq tapşırıqları komandir-rəis heyətinə və təlim iştirakçılarına bir daha çatdıran Müdafiə naziri genişmiqyaslı əməliyyat-taktiki təlimlərin təşkili və keçirilməsi ilə bağlı müvafiq göstərişlər verib.



# Müdafiə naziri düşmənə qarşı daha sərt tədbirlərin görülməsi ilə bağlı konkret tapşırıqlar verib

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada yerləşən bölmələrdə olub, şəxsi heyətin döyüşə hazırlıq vəziyyətini yoxlayıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, bir neçə gündür ki, Azərbaycan-Ermənistan dövlət sərhədində düşmən tərəfindən atəşə məruz qalan yaşayış məntəqələrimiz istiqamətindəki bölmələrdə olan Müdafiə naziri, vəziyyətlə bağlı məruzələri dinlədikdən sonra qarşı tərəfin mövqelərini müşahidə edib.

Ön xətt mövqelərindəki vəziyyətlə yerində tanış olan nazir dinc əhalinin Ermənistan qoşunları tərəfindən atəşə tutulmasına qarşı təxirəsalınmaz cavabın verilməsi və daha sərt tədbirlərin görülməsi ilə bağlı həmin istiqamətlərdə yerləşən bölmələrə konkret tapşırıqlar verib.

Hərbi qulluqçularla görüşərək onların qayğıları, sosial-məişət şəraiti ilə maraqlanan general-polkovnik Zakir Həsənov şəxsi heyətlə çay süfrəsi arxasında söhbət aparıb.



# “Son günlər Ermənistan tərəfi 4-5 hərbi qulluqçusunu itirib, lakin bunu bütün səylərlə ictimaiyyətdən gizlədir”

Azərbaycan Müdafiə Nazirliyi erməni tərəfinin guya son günlər Ermənistan silahlı qüvvələri tərəfindən 3 Azərbaycan əsgərinin öldürülməsi barədə yaydığı məlumata münasibət bildirib.

Müdafiə Nazirliyindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər ki, düşmən tərəfinin yaydığı bu məlumat həqiqətə uyğun deyil, dezinformasiyadır və özlərinin verdiyi itkiləri ört-basdır etmək məqsədilə daxili auditoriya üçün tirajlanır.

Azərbaycan tərəfindən fərqli olaraq, əksinə, son günlər Ermənistan tərəfi 4-5 hərbi qulluqçusunu itirib, lakin bunu bütün səylərlə ictimaiyyətdən gizlədir. O ki, qaldı yaralanan erməni mülki şəxsə, Müdafiə Nazirliyi bildirir ki, Azərbaycan Ordusunun bölmələri mülki əhaliyə və yaşayış məntəqələrinə atəş açmır.

# Azərbaycan Hərb Tarixi Muzeyində “15 sentyabr - Bakının işğaldan xilası günü”nə həsr edilmiş dəyirmi masa keçirildi

*Azərbaycan Hərb Tarixi Muzeyində "15 sentyabr - Bakının işğaldan xilası günü"nə həsr edilmiş dəyirmi masa keçirildi.*

Əvvəlcə ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə "15 sentyabr zəfəri Azərbaycan Xalq Cümhuriyyətinin siyasi, diplomatik və hərbi qələbəsidir" mövzusunda məruzə ilə çıxış etdi.

Natiq qeyd etdi ki, sentyabrın 15-də Bakının bolşevik hərbi birləşmələri, yadelli işğalçılar və daşnaklardan azad edilməsinin 100-cü ili tamam oldu. "Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Əlahiddə Azərbaycan Korpusu Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından azad etdi. Bu, Bakının tarixində ən unudulmaz və şanlı səhifələrdən biri olmaqla, Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı zəminində müstəsna əhəmiyyət daşıyan böyük hadisəyə çevrildi. Qələbə ilə həm Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinə yaranacaq ciddi təhlükə aradan qalxmış oldu, həm də Bakı və ətraf rayonlarda erməni-bolşevik ağalığına son qoyuldu. Bakının azad edilməsinin o zaman böyük əhəmiyyəti vardı. Milli Şuranın rəhbəri Məmməd Əmin Rəsulzadə baş nazir Fətəli Xan Xoyskiyə yazırdı: "Bakı hökmən, hökmən və hökmən azad edilməlidir. Bakı hökmən indi azad olunmalıdır, indi azad olunmasa, sonra böyük çətinliklər qarşısında qala bilərik. Bakı azad olunmasa, əlvida Vətən, əlvida Azərbaycan". Möhtəşəm və tarixi qələbədən sonra - sentyabrın 17-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı Gəncə şəhərindən Bakıya köçürüldü. İki qardaş xalqın igid övladlarının qanları bahasına Bakı və digər rayonların azad edilməsi ilə hökumət öz hakimiyyətini ölkənin bütün hüdudlarında təmin etdi."

Muzeyin elmi işlər üzrə rəis müavini Hacı Həsənov "Bakı 15 sentyabrdan sonra" mövzəsi ilə çıxış edərək bildirdi ki, türk ordusunun Bakını bolşevik-daşnak işğalından azad etməsi şəhərdə əsl bayrama səbəb oldu. "Məşhur milyonçu və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev türk ordusunun şərəfinə təntənəli ziyafət təşkil etdi. Ziyafət indiki Azərbaycan Dövlət Filarmoniyasının binasında keçirildi. H.Z.Tağıyev türk ordusunun komandanı Nuru paşaya və onun qəhrəman sərkərdələrinə hədiyyələr təqdim etdi. Amma Antanta dövlətlərinin Osmanlı Türkiyəsinə təzyiqi getdikcə daha da artırdı. Ona görə də qısa müddətdən sonra türk qoşunları Bakını tərk etməli oldular."

"Azərbaycan və Osmanlı birləşmiş hərbi qüvvələrinin Bakı əməliyyatı" mövzusunda çıxış edən AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi Kamran İsmayılov qeyd etdi ki, 15 sentyabr Azərbaycan xalqının tarixində 28 may qədər böyük dəyərə malikdir. Əgər 28 mayda Cümhuriyyətin istiqlalı bütün dünyaya elan edilmişdisə, 15 sentyabrda bu istiqlal real bir təməl üzərində qurulmuş oldu".

Natiq o zaman Azərbaycan hökumətinin başçısı Fətəli xan Xoyskinin Bakının azad edilməsi münasibətilə Nuru paşaya yazdığı məktubu da tədbir iştirakçılarının diqqətinə çatdırdı: "Cəsur türk əsgərlərinin Azərbaycanın baş kəndi olan Bakının düşməndən təmizlənməsi münasibətilə millətimin adından dünyanın ən cəsur və soylu əsgəri olan türkün oğullarına minnətdar olduğumuzu ərz etməklə iftixar edirəm. Millət sizə minnətdardır".

Muzeyin əməkdaşı Zəfər Kərimov "Bakının azad edilməsi ərəfəsində ictimai-siyasi durum" haqqında məlumat verdi.

Sonda mövzu ilə bağlı sənədli film nümayiş olundu.

**Leytenant**
**Samir HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Naxçıvanda kursantların hər birinə tədris vəsaitləri ilə tam komplektləşdirilmiş çantalar hədiyyə edilib





Heydər Əliyev adına Hərbi Liseyi ötən illər ərzində 3 minə yaxın kursant bitirərək müxtəlif Ali Hərbi məktəblərə daxil olub. Bu il Hərbi liseyi bitirən 208 məzundan 172-si Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə, 21-i Türkiyə Respublikasının, 8-i isə Rusiya Federasiyasının müxtəlif Ali Hərbi məktəblərinə daxil olub.

AZƏRTAC xəbər verir ki, bu faktlar Heydər Əliyev adına Hərbi Liseydə keçirilən tədbirdə Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev tərəfindən səsləndirilib.

Əvvəlcə tədbirə hazırlıqla bağlı məruzə edildikdən sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

General-leytenant Kərəm Mustafayev yeni dərs ilinin başlanması münasibətilə zabit, müəllim və kursantları təbrik edərək bildirib ki, 56 kursantla fəaliyyətə başlayan liseydə hazırda 387 kursant təhsil alır. Onlardan 136-sı hərbi təhsil almaq üçün ölkəmizin digər bölgələrindən Naxçıvan Muxtar Respublikasına gələn gənclərdir.

Hərbi liseyin müəllimi Mirismayıl Seyidov və kursant Əli Hacıyev çıxış edərək yaradılan hərtərəfli şəraitə görə dövlətimizə minnətdarlıqlarını bildirib, bundan sonra da dərslərdə fəal olacaqlarına söz veriblər. Valideynlərdən Vidadi Həsənov liseydə kursantların yaxşı təhsil alması üçün hər bir şəraitin mövcud olduğunu vurğulayıb, kursantlara təhsillərində uğurlar arzulayıb.

Çıxışların ardından xidmətdə fərqlənən və ehtiyatda olan bir qrup hərbi qulluqçuya medallar təqdim edilib. Sonra orkestrin müşayiəti ilə "Hərbi lisey marşı" ifa edilib. Hərbi liseyin şəxsi heyətinin tribunanın önündən təntənəli keçidi olub.

Qeyd edək ki, hər il Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin tapşırığı ilə Heydər Əliyev adına Hərbi Liseydə təhsil almağa başlayan kursantların hər birinə tədris vəsaitləri ilə tam komplektləşdirilmiş çantalar hədiyyə edilir. Tədbirdə kursant çantalarına baxış olub. Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev müəllimlərlə görüşüb, keçirilən dərslərlə maraqlanıb.

# Hərbi dənizçilərlə birgə tədbir keçirildi

*Sentyabrın 15-i Bakının işğaldan azad olunduğu gündür. 100 il bundan əvvəl, 1918-ci il sentyabrın 15-də Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Əlahiddə Azərbaycan Korpusu Bakıya daxil olaraq şəhəri düşmənlərin işğalından azad edib. Bununla həm Azərbaycanın müstəqilliyi təmin olunub, həm də ermənilərin və bolşeviklərin Bakı və ətraf rayonlardakı ağalığına son qoyulub.*

"İnnovativ Təşəbbüslər" İctimai Birliyinin təşəbbüsü, Müdafiə və Təhsil nazirliklərinin dəstəyi ilə Hərbi Dəniz Qüvvələrinə məxsus gəmidə 15 sentyabr - Bakının işğaldan azad olunmasının 100 illiyinə həsr olunmuş tədbir keçirildi.

Tədbirdə Müdafiə və Təhsil nazirliklərinin, "İnnovativ Təşəbbüslər" İctimai Birliyinin nümayəndələri, şəhid, hərbçi və aztəminatlı ailələrin övladları, istedadlı şagirdlər və valideynlər iştirak edirdilər.

Ümummilli lider Heydər Əliyevin, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin nümayəndəsi, dövlət qulluqçusu Zümrüd Səmədova açaraq bildirdi ki, Bakının bolşevik hərbi birləşmələri, yadelli işğalçılar və daşnaklardan azad edilməsinin 100-cü ili tamam olur. "1918-ci ilin iyulundan Qafqaz İslam Ordusu artıq Bakının azad edilməsi istiqamətində hərəkətə keçmişdi. 1918-ci il sentyabrın 15-də Qurban bayramı günündə Bakı işğalçılardan azad edildi. Nuru paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu Bakının azad edilməsində böyük şücaətlər göstəriblər. Bu döyüşlərdə azərbaycanlılarla çiyin-çiyinə vuruşan mindən artıq türk əsgəri şəhidlik zirvəsinə yüksəlib. Yerli əhalidən isə şəhidlərin sayı 5 mindən artıq idi...".

Dövlət qulluqçusu qeyd etdi ki, qardaş Türkiyənin hərbi dəstəyilə Bakının azad edilməsi Azərbaycan tarixinə daha bir zəfər gününü yazdı. "Bu, eyni zamanda dahi Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir!" fikrinin əyani təsdiqi idi. Bakının azad edilməsindən iki gün sonra paytaxt Gəncədən Bakıya köçürüldü".

"İnnovativ Təşəbbüslər" İctimai Birliyinin sədri Əşrəf Əhmədov iki dövlət arasındakı dostluqdan söz açaraq bildirdi ki, Azərbaycanla Türkiyə çətin məqamlarda bir-birinin köməyinə çatıb. "Bu, qardaşlıq missiyasıdı. 1918-ci ildə müstəqillik qazanan Azərbaycan Demokratik Respublikasını tanıyan ilk dövlət məhz Türkiyə oldu."



Azərbaycan Milli Elmlər Akademiyasının böyük elmi işçisi, tarixçi Rizvan Hüseynov bildirdi ki, Qafqaz İslam Ordusu Bakının mühasirəsini çox dəqiqliklə həyata keçirmişdi. "Hətta ingilis qoşunlarının komandanı Denstervil xatirələrində etiraf edirdi ki, türk topçuları çox dəqiqliklə atəş açırdılar. Onların atəşi Bakıdakı memarlıq abidələrinin heç birinə ziyan vurmadı".

Baş leytenant Arif Qəhrəmanov Bakının azad edilməsinin böyük əhəmiyyətindən, Azərbaycanı Bakısız təsəvvür etməyin mümkünsüzlüyündən söz açdı.

Tədbirdə çıxış edənlər Bakının azad olunması üçün keçirilən hərbi əməliyyatlarda yüzlərlə türk əsgərinin şəhid olduğunu, türk şəhidlərinin məzarlarının indi də ehtiramla yad edildiyini, Bakıdakı Şəhidlər xiyabanında türk əsgərlərinin xatirəsinə abidə ucaldıldığını bildirdilər.

Sonda tədbir iştirakçıları xatirə şəkli çəkdirdilər.

**Baş leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**18 sentyabr 2018-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 85 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Qızılhacılı kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Kəngərli, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrində andiçmə mərasimi keçirildi

*Tədris ilinin başlanması münasibətilə hərbi kadrların hazırlanmasını həyata keçirən xüsusi təyinatlı təhsil müəssisələrinə yeni qəbul olan kursantların andiçmə mərasimləri keçirildi. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin, C.Naxçıvanski adına Hərbi Lisey və Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinin şəxsi heyətinin, valideynlər və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirlərdə ulu öndər Heydər Əliyevin və Vətənimizin azadlığı, suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət himni ifa olundu. Daha sonra kursantlar sıra meydanında Vətənə sədaqət andı içdilər.*





Bu günlərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində də kursantların andiçmə mərasimi keçirildi. Məktəb rəisinin müavini polkovnik Ruslan Məmmədov gənc kursantların andiçmə mərasiminə düzülməsi barədə məktəb rəisi general-mayor Fizuli Salahova raport verdi. Məktəb rəisi gənc kursantları salamladı və onları əlamətdar gün münasibətilə təbrik etdi.

Polkovnik Mikayıl Hüseynov çıxışında qeyd etdi ki, Hərbi and müstəqil Azərbaycan Respublikasının Konstitusiyasından irəli gəlir və onun qəbul edilməsi - Vətənimizin ərazi bütövlüyünün qorunması, torpaqlarımızın təhlükəsizliyinin təmin olunması, müstəqilliyimizin qorunub saxlanması kimi dövlət əhəmiyyətli bir məsələdir.

Zabit onu da bildirdi ki, yüksək peşəkarlığa malik zabit kadrların hazırlanması Azərbaycan xalqı qarşısında misilsiz xidmətləri olan ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdı. “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin fəaliyyəti maksimum diqqət və qayğı ilə əhatə olunur. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğu ilə bağlı tövsiyələrinə əsaslanaraq bildirmək istəyirəm ki, siz kursantların əsas vəzifəsi məktəbdə yaradılmış maddi-texniki bazadan, müəllim-professor heyətinin biliyindən, təcrübəsindən səmərəli istifadə edib gələcəkdə peşəkar zabit olmaqdan ibarətdir.”

Gənc kursantlar adından çıxış edən Vüsal Allahverdiyev bu gün onların və valideynlərinin həyatında təntənəli bir gün olduğunu dedi: "Bu yolu özümüz seçmişik və bununla fəxr edirik. Biz kursantlar bütün gücümüzü və biliyimizi səfərbər edib ağıllı və güclü zabit olacaq, Vətən torpaqlarını düşmən tapdağından azad edəcəyik. Bu bizim müqəddəs borcumuzdur. Mən məktəb komandanlığına, zabit və müəllimlərə öz təşəkkürümü bildirirəm.”

Valideynlər adından çıxış edən Ramil Əliyev sevincinin hədsiz olduğunu bildirdi: "Fəxr edirəm ki, mənim də oğlum hərbi libas geyinəcək, hərb işini vicdanla öyrənəcək, ömrünü dövlətimizin ərazi bütövlüyünün qorunmasına həsr edəcəkdir."

Tədbir məktəbin şəxsi heyətinin təntənəli keçidi ilə başa çatdı.

* * *

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Bilik Gününə həsr olunmuş tədbir keçirildi. Mayor Tural Maniyev tədbiri açıq elan etdi.

Tədbirdə çıxış edən Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəisi general-mayor Bəkir Orucov şəxsi heyəti 2018-2019-cu tədris ilinin başlanması və Bilik Günü münasibəti ilə təbrik etdi.

- Bu gün həm də Hərbi liseyin 1-ci kursuna qəbul olunmuş kursantların Şərəf andını qəbul etməsi ilə əlamətdardır. Sizi qəbul edəcəyiniz Şərəf andı münasibətilə də təbrik edir və arzu edirəm ki, həmişə bu anda sadiq qalaraq, komandanlığın və valideynlərinizin sizə olan ümidlərini layiqincə dogruldasınız.

Gənc kursantlar komandirin əmri ilə sıradan irəli çıxaraq əllərini bir-birilərinin çiyinlərinə qoyaraq Şərəf andı içdilər. Bu anlarda onların gözündə böyük sevinc var idi, üzlərindən iftixar və qürur yağırdı. Kursantların gur səsi dalğa-dalğa ətrafa yayılırdı.

Hərbi liseyin şəxsi heyətinin "Naxçıvanskilər" marşını ifa etməsi də yaddaqalan oldu.

Azərbaycan dili və ədəbiyyat müəllimi Gülşən Əhmədova da çıxış edərək kursantlara uğurlar arzuladı. Valideynlərdən Hacıbaba Əmiraslanov da çıxışında Hərbi liseydə yaradılan şəraitdən razılıqla danışdı, buna görə təhsil ocağının rəhbərliyinə minnətdarlığını bildirdi. Kursantlar adından çıxış edən kursant Elnur Məmmədov əminlik hissi ilə vurğuladı ki, onlara göstərilən etimadı doğruldacaqlar.

Bilik Gününə həsr olunmuş mərasim şəxsi heyətin təntənəli marşla tribunanın önündən keçməsi ilə başa çatdı.

* * *

Silahlı Qüvvələrin Baş Klinik Hospitalında Azərbaycan Tibb Universiteti Hərbi Tibb fakültəsi kursantlarının andiçmə mərasimi keçirildi. Mərasimdə Müdafiə Nazirliyinin nümayəndələri, kursantların valideynləri, fakültənin müəllim-zabit heyəti iştirak edirdilər.

Hərbi Tibb fakültəsinin rəisi tibb xidməti polkovniki Çingiz Əlləzov andiçmə mərasimini açıq elan edərək kursantları mötəbər gün münasibətilə təbrik etdi. "Bu gün hər biriniz ordu həyatına ilk qədəmlərinizi qoyursunuz. Həkim peşəsi müqəddəs və məsuliyyətli peşədir. Hərbi həkim olmaq isə işinizin məsuliyyətini və müqəddəsliyini daha da artırır. Dövlətin ordumuza diqqəti yüksək, xalqımızın ordumuza inamı sonsuzdur. Müasir ordu quruculuğunun əsasını qoyan ümummilli lider Heydər Əliyevin başladığı uğurlu siyasət,



hazırda Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Müasir avadanlıqlarla təchiz olunmuş sinif otaqlarımızda sizlərin həm nəzəri, həm də praktiki biliklərinizi artırmaq üçün hər cür şərait yaradılıb. Sizin üzərinizə düşən əsas vəzifə dərslərinizə hazırlıqlı, nizam-intizamlı olmaq, müəllim-zabit heyətinin tapşırıqlarını vaxtında və dəqiqliklə yerinə yetirməkdir. Hər birinizə bu müqəddəs yolda uğurlar arzu edirəm".

Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik Elnur Məmmədov da valideynləri və kursantları əlamətdar gün münasibətilə təbrik etdi. "Andiçmə mərasimi hər bir gəncin həyatında unudulmaz bir gündür. Bu gündən siz şərəfli peşənin sahibləri sayılırsınız. Vətənə, millətə sədaqət andı içərək, bu gündən gələcəyin hərbi həkimləri adını qazandınız. Hərbi həkim peşəsi iki müqəddəs peşənin vəhdətidir. Bu ad sizin məsuliyyətinizi ikiqat artırır. Peşəkar müəllim-zabit heyəti tərəfindən tədris olunan dərslərinizi tamamladıqdan sonra müxtəlif hərbi hissələrdə xidmətə başlayacaqsınız. Ona görə də, hər birinizə dərslərinizdə məsuliyyətli olmağı, istər nəzəri, istərsə də praktiki biliklərinizi durmadan artırmağı tövsiyə edirəm. İnanırıq ki, sizlər Hərbi anda sadiq qalaraq qüsursuz xidmətinizlə valideynlərinizə və xalqımıza başucalığı gətirəcəksiniz".

Sonra çıxış üçün söz kursant Kərəm Məmmədova verildi. "Bu gün hər birimizin həyatında əlamətdar bir gündür. Hərbi andı qəbul edərək Vətənimizə, xalqımıza sadiq olacağımıza, bu yolda canımızı və qanımızı əsirgəməyəcəyimizə söz verdik. Valideynlərimizin, müəllimlərimizin bizə olan ümidlərini doğrultmaq üçün əlimizdən gələni edəcəyik. Burada təhsilimizi artırmaq, gündəlik fəaliyyətlə məşğul olmağımız üçün hər cür şərait yaradılıb. Bu gündən xidmət yoldaşlarımla müqəddəs amala xidmət edəcəyik - Vətənin müdafiəsində öz peşə borcumuzu yerinə yetirəcəyik.”

Kursant valideynləri adından çıxış edən İmanxan Qurbanlı bildirdi ki, bu gün ordumuzun güclənməsi üçün xeyli işlər görülür. "Oğlum da daxil olmaqla, bütün kursantları bu əlamətdar gün münasibətilə təbrik edir, onlara bu müqəddəs vəzifənin öhdəsindən layiqincə gəlməyi diləyirəm".

Təntənəli keçid başa çatdıqdan sonra tədbir bağlı elan olundu və valideynlər kursantlar üçün yaradılan şəraitlə tanış oldular.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

Ordu və cəmiyyət

# “Mən də əsgər olacam!”

*Uşaqların düşüncələri heyrətləndiricidi. Maraq dünyası da, hadisələrə münasibəti də bənzərsiz olan uşaqlar yaşından tez böyüyür elə bil.*

Təbrizin 6 yaşı var. Gəncə şəhərində yaşayır. Ordumuzun 100 illiyinə həsr olunan paradı izlədikdən sonra atasına deyib:

- Bizim belə gücümüz var, ata, erməniləri torpaqlarımızdan qovacağıq!

Təəssüflə onu da deyib ki, kaş böyük olaydım, kaş əsgər olaydım, kaş o əsgərlərin sırasında mən də olaydım. Təbriz paradı izləyəndən sonra atasına deyib ki, uşaqlar müharibə görməyəcəklər, ordumuz torpaqlarımızı işğaldan azad edəcək, hərə öz ev-eşiyinə qayıdacaq.

Təbriz nə gözəl düşünür! Həm də yaşını aşan istəklə, ürəyindən boy göstərən sevgilərlə düşünür.

Bu istəyinə, bu sevgisinə görə Təbrizi bayraq əvəzi göylərə dikəldərdim...

Bu, orduya sevginin təzahürüdü.

Bu dumduru inamına görə Təbrizi bağrıma basardım.

Ata-anasıyla şəhərə çıxanda Azərbaycan bayrağını görüncə ayaq saxlayır, sağ əlini sinəsinə qoyur, ötüb keçənlərə məhəl qoymadan himnimizi oxuyur Təbriz.



Bu bənzərsiz sevgisinə görə Təbrizi mən də əzizlərdim...

Tariximizlə çox həssaslıqla maraqlanır. Gəncə xanı Cavad xanın igidliyindən, vətənsevərliyindən danışanda dinlədiklərin sənə könül xoşluğu verir - bu yaşda uşaq şəhidliyin nə olduğunu dərk edirsə, Cavad xanın dövlətçilik naminə şəhid olduğunu deyirsə, Azərbaycan üçün yaşamağın nə olduğunu bilirsə, qürurun necə kükrəməsin?

Təbriz bu il birinci sinfə gedir. Gəncə şəhərində Vüsal Əliyev adına 12 saylı tam orta məktəbdə oxuyacaq. Bu günün qədərsiz sevincini özü də unutmayacaq, valideynləri də. Bu, adi sevinc deyil. Bu sevinci hamımız yaşamışıq; işığı gur olan sevincdi, işığı ömür yolunu nurlandıran sevincdi. "Yaxşı oxuyacam. Elə oxuyacam ki, mənimlə müəllimlərim də qürurlanacaq, atam-anam da..." - Təbriz belə deyir.

İlk dərs gününün həyacanını təsvir etməyə qüdrətim çatmır; şagird nəyə həyəcanlanır, bu həyəcanı nə, necə "yumşaldır", ilk zəng səslənəndə ürəyindən nələr keçir...

Təbriz oxuyacaq, oxuya-oxuya öyrənəcək, öyrənə-öyrənə elmlərə bələd olacaq, bu bələdçilik onun peşə seçiminə vasitə olacaq. Hansı peşəni seçəcəksə, kamil mütəxəssis olacaq, şübhəsiz, mükəmməl təhsil alacaq. Öz dünyasını yaradacaq Təbriz, Böyük Dünya bu Dünyanı yaxşı tanıyacaq...

Təbriz müəllimi Zəhra Quliyevadan öyrəndiklərini artıra-artıra, elmlərə vaqif ola-ola böyüyəcək, arzuladığı günün sevincini Zəhra müəllimlə də bölüşəcək, belə düşüncələrlə yaşadığının zəmanətilə düşünürəm ki, ona təşəkkür də edəcək: "Çox sağ olun, müəllim!..."...

Anası Elminaz xanım deyir ki, Təbriz ötən ildən bu yana məktəbə gedəcəyi günün həsrətindəydi. Elə bil dünyanı ona veriblər...

Zamanı qabaqlayaraq böyüyəcəyi, əsgər olacağı günə tələsən Təbriz Mübarizoğlunun bütün birinciləri təmsil etdiyinə zərrəcə şübhəm yoxdu; birincilər də torpaqlarımızın işğaldan azad ediləcəyi günə tələsir, əsgər olaraq Vətən borcunu yerinə yetirəcəkləri günə tələsir; Təbrizlər Azərbaycanımızın sabahkı əsgərləridi...

Təbrizlər məktəbə gedir, Vətən! Böyüyəcəklər, hərbi xidmətə gedəcəklər. Ərazi bütövlüyü bərpa olunmuş dövlətimizin əsgəri olacaqlar. Qalib hərbçilərin balalarıyla bir sırada. Azərbaycan Ordusunun Böyük Qələbəni necə qazandığını xatırlayacaqlar. "Onda biz məktəbliydik...", - deyəcəklər...

Təbrizlərin var, Vətən! Təbrizlərin əsgər olacağı günün başlanğıcındadı...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusu geniş hərbi təlimlərə başlamaqla Ermənistan rəhbərliyi və cəmiyyətində narahatlıq və qorxu yaradıb

*Azərbaycan Ordusunun sentyabrın 17-dən 22-dək davam edəcək təlimlərinə 20 mindən çox şəxsi heyət, 200-dən çox tank və digər zirehli texnika, 120-dən çox müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 10-dək qırıcı və bombardmançı, 20-dək müxtəlif təyinatlı ordu aviasiyasının cəlb edilməsi Ermənistan cəmiyyətinin həyəcanlanmasına səbəb olub. Azərbaycan Ordusu geniş hərbi təlimlərə başlamaqla Ermənistan rəhbərliyi və cəmiyyətində narahatlıq və qorxu yaradıb.*

Bu genişmiqyaslı təlimlər regionda analoqu görülməyən hərbi təlimlərdən biridir. Azərbaycan Ordusu hərbi-texniki imkanlarına görə regionda yalnız Rusiya ordusundan sonra belə təlimlər keçirmə potensialına sahibdir. Bu təlimlər Ermənistan hökuməti üçün Azərbaycanın son xəbərdarlığı ola bilər. Azərbaycan Ordusu genişmiqyaslı hərbi təlimlər keçirməklə hər zaman müharibəyə hazır olduğunu göstərib. Biz buna xüsusilə aprel döyüşlərində və Günnüt əməliyyatlarında əldə edilən uğurların timsalında şahidi olduq. Digər tərəfdən, Nikol Paşinyan qeyd edir ki, heç bir güzəştə getməyəcək. Bunlar danışıqların pozulmasına yönəlmiş addımlardır. ATƏT-ın Minsk Qrupu-nun həmsədrləri səssizliyini qoruyurlar və Ermənistan hökumətinin danışıqlardan yayınmaq cəhdinə heç bir reaksiya vermirlər. Görünür, Qərb münaqişənin həllində maraqlı deyil. Lakin Azərbaycan tərəfi də səssizliyini çox qorumaya bilər. Hazırda Ermənistanın baş nazirinin Qarabağ danışıqlarından yayınmaq cəhdləri Azərbaycana imkan verir ki, növbəti əks-hücumla ərazilərini işğaldan azad etsin. Azərbaycan Ordusu çevik hərbi əməliyyatlara başlayarsa, aprel döyüşlərində və Günnüt əməliyyatlarında olduğu kimi, Ermənistan ordusu növbəti dəfə də ordumuzun gücünə yaxından bələd olacaq.

**Ehtiram AŞIRLI,**
**analitik-icmalçı**

# İdman

## Almaniyada keçirilən Karate1 turnirində Azərbaycan milli komandası üç medal qazanıb



Azərbaycan milli komandası Almaniyada keçirilən Karate1 turnirində dörd medal uğrunda mübarizə aparıb.

İlk olaraq tatamiyə üçüncü yer uğrunda mübarizəyə Azərbaycan milli komandasının üzvü Firdovsi Fərzəliyev çıxıb. Onun rəqibi Qazaxıstan idmançısı Kaysar Alpisbay olub. Görüş idmançımızın 2:0 hesablı qələbəsi ilə başa çatıb.

Karatenin brilyantı sayılan Rafael Ağayev turnirin final mərhələsində Yusey Sakimaya (Yaponiya) ilə qarşılaşıb. Görüşün idmançımızın üstünlüyü ilə keçməsinə baxmayaraq, yaponiyalı idmançı xal sayına görə üstün olub (6:3).

Qadınlar arasında 68 kiloqram çəki dərəcəsində milli komandamızın üzvü İrina Zaretska final mərhələsində türkiyəli karateçi Eda Eltemurla qarşılaşıb. Döyüş türkiyəli idmançının qələbəsi ilə başa çatıb (7:4).

## Sərbəst güləşçilərimiz Minskdə üçüncü olublar

Belarusun paytaxtı Minskdə üçqat Olimpiya çempionu Aleksandr Medvedin şərəfinə keçirilən beynəlxalq turnirdə sərbəst güləş üzrə yığmamız komanda hesabında 3-cü yeri tutub.

Baş məşqçi Firdovsi Umudov, məşqçilər Zəlimxan Hüseynovla Arif Abdullayevin rəhbərliyi altında Şərif Şərifov (92 kq) və Cəmaləddin Məhəmmədov (125 kq) qızıl, Hacı Əliyev (65 kq), Ağahüseyn Mustafayev (70 kq) və Murad Süleymanov (86 kq) gümüş, Murtuzəli Müslimov (70 kq) isə bürünc medal qazanıblar. Millimiz bu nəticələrlə 126 xal toplayıb və 3-cü yeri tutub. Komandamız yalnız Rusiya (177) və Belarusdan (169) geri qalıb.

## Azərbaycan üzgüçüsü Qətərdə dünya kubokunun qızıl medalını qazanıb



Sentyabrın 14-15-də Qətərin paytaxtı Dohada üzgüçülük üzrə dünya kubokunun mərhələ yarışı keçirilib.

Dünya kubokunda Azərbaycanın üzgüçülük üzrə yığma komandasının üzvü Maksim Şembirev kişilər arasında 200 metr məsafəyə batterflay üsulu ilə yarışda qızıl medal qazanıb. İdmançımız 400 metr məsafəyə qarışıq üsulla üzgüçülük yarışında isə gümüş medala sahib olub.

## Voleybol üzrə Azərbaycan millisi Bakıda Rusiya klubuna qalib gəlib



Qadın voleybolçulardan ibarət Azərbaycan millisi dünya çempionatına hazırlığı Bakıda davam etdirir.

Millimiz Bakı toplanışı çərçivəsində Azərbaycan Voleybol Mərkəzində Rusiyanın "Dinamo Krasnodar" klubu ilə yoxlama oyunu keçirib. Görüş yığmamızın 3:0 hesablı qələbəsi ilə yekunləşib.

Millimiz toplanış çərçivəsində Rusiyanın digər klubu "Uralоçka" ilə yoxlama oyununda da gücünü sınayacaq.

Qeyd edək ki, dünya çempionatı sentyabrın 29-dan oktyabrın 20-dək Yaponiyada təşkil olunacaq.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 694
Nüsxə 3525